# Hücum əmrinizə müntəzirik, cənab ALİ BAŞ KOMANDAN!



## Prezidentin poçtundan

*İndi hamının keşiyində müsəlləh əsgər kimi dayandığı, üz tutduğu bir ünvan və bir şəxsiyyət var - Vətən və Ali Baş Komandan! Bu günlər yaşından, vəzifəsindən, sosial statusundan, harada və hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı, soydaşımız Ali Baş Komandanın əmri ilə müqəddəs Vətənimizi düşməndən qorumağa, əzəli torpaqlarımızı işğaldan azad etməyə hazır olduğunu bir daha ortaya qoyur. Təkcə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin internet səhifəsindəki poçtuna gələn məktub və müraciətlərin məzmununa nəzər salmaq kifayətdir ki, xalqımızın birlik ruhu, döyüş əzmi, dövlət başçısının ətrafında sıx birləşmək mövqeyi bəlli olsun. Həmin məktub və müraciətlər bir daha sübut edir ki, xalqımız lazım olan məqamda çəkici bir yerə vurmağa, bir amal uğrunda birləşməyə və güc nümayiş etdirməyə qadirdir.*

**İsmayıllı rayon** ictimaiyyətinin nümayəndələrinin dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları müraciətdə deyilir: “Möhtərəm cənab Prezident! Siz ABŞ-da keçirilmiş Nüvə Təhlükəsizliyi Sammitindəki çıxışınızda Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini tədbir iştirakçılarının diqqətinə olduğu kimi çatdırdınız. İşğalçı ölkənin ərazisindəki Atom Elektrik Stansiyasının nüvə təhlükəsi yaratdığını qətiyyətlə bildirdiniz. Lakin Ermənistan nəticə çıxarmaq əvəzinə atəşkəsi pozmağa, yeni ərazilər zəbt etməyə cəhd göstərdi. Ali Baş Komandan kimi Sizin qətiyyətli iradənizlə ordumuzun qüdrəti və şücaəti sayəsində bu cəhdlərin qarşısı alındı, işğalçı böyük itkilər verərək geri çəkildi. Bir çox yaşayış məntəqələrimizi təhlükə altında saxlayan yüksəkliklər, müşahidə məntəqələri geri alındı, istehkamlar dağıdıldı, orada möhkəmləndirmə işləri görüldü. Möhtərəm Prezident, bütün xalqımız kimi, biz ismayıllılılar da Sizinlə və rəşadətli ordumuzla fəxr edirik! Böyük Qələbə yolunda Allah sizə və xalqımıza yar olsun!”

“Bu gün Ali Baş Komandan kimi apardığınız siyasəti dəstəkləyirik və ön cəbhəyə - döyüşlərə getmək üçün əmrinizi gözləyirik. Bu qətiyyətlə, bu inamla biz mütləq qalib gələcəyik. Ulu Tanrı köməyiniz olsun!” - bu sözləri isə **Füzuli rayonunun Qoçəhmədli kəndindən** olan **Qəhrəman HÜSEYNOV** yazıb.

**Ağdamdan Eldar BƏHRAMOV** isə Ali Baş Komandana müraciətində bildirir: “Ehtiyatda olan döyüşçü kimi Qarabağda gedən döyüşlərdə Azərbaycan Ordusunun uğuruna sevinirəm və qələbəmizə inanıram. Mən də bir azərbaycanlı və qarabağlı kimi döyüşə qatılmaq üçün əmrinizə müntəzirəm. 1993-cü ildə Ağdamda gedən döyüşlərdə könüllü vuruşmuşam və yenə də buna tam hazıram. Cənab Ali Baş Komandan, yaxşı ki, varsınız və Siz ordumuza ruh yüksəkliyi verirsiniz. İnşallah, Azərbaycan bayrağı Ağdam, Şuşa, Xankəndi və işğal olunmuş digər şəhərlərimizdə dalğalanar!”

“Xarici və daxili siyasətimizdə qazanılan uğurlara görə Sizi təbrik edirəm. Hər bir azərbaycanlı kimi, mən də Sizin döyüş əmrlərininzi yerinə yetirməyə hazıram. Bizim birliyimiz və gücümüz qarşısında düşmənin tab gətirmədiyini gördük. Bu, yolun başlanğıcıdır. Sizə uğurlar arzulayıram!” - bu fikirlər isə Prezidentə **Bakıdan** müraciət etmiş **Bəşər HACIYEVƏ** məxsusdur.

Ehtiyatda olan əsgər **Anar NAİBOV** da **Naxçıvandan** Ali Baş Komandana etdiyi müraciətində bu fikirdədir. O yazır: “Son günlər cəbhədə baş verən hadisələr və hərbçilərimizin qələbələri bizi çox sevindirir. Qüdrətli ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələrdən qürur hissi keçiririk. Biz özümüz cəbhədə olmasaq da, ürəyimiz oradadır. Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda vuruşmaq üçün Sizin əmrinizi gözləyirik”.

**Mingəçevirli Rövşən SƏFƏROV** isə bu fikri davam etdirərək bildirir: “Azərbaycan xalqı Sizin əmrinizi gözləyir. Bu, tarixi bir şansdır. Torpaqlarımız tezliklə erməni işğalından azad edilməlidir. Millətimiz Sizin arxanızca gedərək bunu etməyə hazırdır. Yetər ki, əmr verin, cənab Ali Baş Komandan!”

**Kəlbəcərli Tural MEHDİYEV** də Prezidentə torpaqlarımızın düşməndən azad olunmasında iştirak etməyə hazır olduğunu yazır: “Həm Azərbaycan vətəndaşı, həm də Kəlbəcərdə doğulmuş və yurd həsrəti ilə yaşayan bir gənc kimi hadisələri kənardan izləmək mənə çətindir. Torpaqlarımızın azadlığı uğrunda döyüşmək bizə yalnız şərəf verər. Cənab Ali Baş Komandan, Sizin səfərbərlik barədə əmrinizi gözləyirik”.

Bu vətənpərvərlik ruhu Azərbaycandan kənarda yaşayan gənc soydaşlarımıza da hakim kəsilib. Azərbaycan-Macarıstan Gənclər Birliyinin sədri **İbrahim SƏFƏRLİ,** Azərbaycan-Rumıniya Gənclər və Mədəniyyət Assosiasiyasının sədri **İqbal HACIYEV,** Latviyadakı “Azeri” Gənclər Birliyinin sədri **Amil SƏLİMOV,** “Azərbaycan-Latın Amerikası Gənclərinin Dostluğu” İctimai Birliyinin sədri **Mahir QURBANOV,** Azərbaycan Slavyan Gəncləri Assosiasiyasının Rusiyadakı nümayəndəsi **Toğrul ALLAHVERDİLİ,** həmin assosiasiyanın Ukraynadakı nümayəndəsi **Xəzri ELXANOĞLU,** Paris “Azərbaycan Evi”nin rəhbəri **Mirvari FƏTƏLİYEVA,** Almaniya-Azərbaycan Gənclər Birliyinin sədri **Elnur RİXTER,** Çex-Azərbaycan Mədəniyyət Mərkəzinin sədri **Əbdül ƏLİYEV,** İtaliya Azərbaycan Gənclər Birliyinin vitse-prezidenti **Məryəm MEHDİYEVA,** İndoneziya Azərbaycan Gənclər Mərkəzinin rəhbəri **Elmar İSGƏNDƏROV** və digər xarici ölkələrdə fəaliyyət göstərən analoji qurumların nümayəndələrinin Prezident İlham Əliyevə göndərdikləri məktubda yazılır: “Cənab Ali Baş Komandan! Azərbaycandan kənarda yaşayan yüz minlərlə həmvətənimiz erməni təxribatının qarşısının alınması, əhalinin təhlükəsizliyinin qorunması məqsədilə silahlı qüvvələrimiz tərəfindən görülən cavab tədbirlərini dəstəkləyir, qısa müddətdə həyata keçirilən sürətli əks-həmlə zamanı strateji əhəmiyyətə malik bir neçə yüksəkliyin və tarixi yaşayış məntəqələrimizin düşməndən azad olunması xəbərinə sevinir, döyüş tapşırığını yerinə yetirərkən şəhid olan əsgərlərimizə Allahdan rəhmət, yaralılara şəfa diləyir. Biz - xaricdə təşkilatlanmış azərbaycanlı gənclər bu şərəfli və tarixi gündə doğma Vətəndə yaşayan soydaşlarımızın yanındayıq. Bu amalla yaşayır, Sizin əmrinizi gözləyərək Qarabağın işğaldan azad edilməsi uğrunda mübarizə aparan Azərbaycan Silahlı Qüvvələrinin sıralarına qatılmağa hazırıq. Ulu Tanrı xalqımıza yeni-yeni qələbələr nəsib etsin!”

**Almaniyanın Köln şəhərində** yaşayan türk əsilli **Menderes ÇAĞLAYAN** isə yazır: “Ermənilərlə döyüşlərdə şəhid olan Azərbaycan əsgərlərinin yeri mütləq cənnətdədir. Qardaş Azərbaycan xalqının başı sağ olsun. Azərbaycan Ordusuna yeni qələbələr arzu edirəm. Qardaş ölkənin torpaqlarının işğaldan azad olunacağı gün uzaqda deyil”.

“Ermənistanın son günlər cəbhə bölgəsində törətdiyi təxribatlar bizi qəzəbləndirib. Şəhid olan azərbaycanlı əsgərlərə Allahdan rəhmət diləyirik. Onlar Vətən uğrunda şəhid olublar. Bu, türk üçün böyük şərəfdir. Biz İraq türkmənləri sözümüz, soyumuz, kökümüz bir olan Azərbaycanla birgə olmaqdan şərəf duyuruq. Allah köməyiniz olsun!” - bu sözləri **Bağdaddan** İraq Türkmənləri Cəbhəsinin rəhbəri **Ərşət Salihi** yazıb.

**Türkiyənin Mersin şəhərindən Vahid Volkan SEVİNC** isə Azərbaycana olan hisslərini belə ifadə edib: “Mən Türkiyədən bir qardaşınız olaraq Azərbaycanın işğal altındakı torpaqlarının geri qaytarılmasında, Ermənistan hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması ilə bağlı aparılan əməliyyatlarda iştirak etmək üçün hazır olduğumu bildirmək istəyirəm. Canımız Qarabağa fəda olsun. Biz türklər canımızdan keçər, ancaq əcdadlarımızın yadigarı olan Vətənimizin bir qarışını düşmənə vermərik”.

**Almaniyanın Lauingen şəhərində** yaşayan soydaşımız, elmi işçi **Fərrux ZEYNALOV** da Prezident İlham Əliyevə ünvanladığı müraciətdə bu mövqedə olduğunu bəyan edir: “Cənab Ali Baş Komandan! Sizin qorxmazlığınız və mərdliyiniz bizə ruh verir. Əgər lazım olarsa, Sizin komandanlığınız altında döyüşə qatılmağa hazıram. Allah Sizi qorusun! Sizin bir əmriniz yetər ki, biz silaha sarılaq”.

**Birləşmiş Krallığın Edinburq şəhərində yaşayan Cavid MƏMMƏDLİ** isə Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubunda öz vətəndaşlıq mövqeyini belə ifadə edir: “Hörmətli cənab Prezidentim! Sizi və bütün Azərbaycan xalqını qazandığınız qələbə münasibətilə təbrik etmək istəyirəm. Mən bir azərbaycanlı, ata yurdu işğal altında olan bir şəxs kimi müqəddəs missiyamızı yerinə yetirməyə hazıram və Sizin əmrinizi gözləyirəm. Allah Sizi hifz etsin və qorusun. Allah bütün şəhidlərimizə rəhmət eləsin!”

MDB ölkələrində yaşayan soydaşlarımız da Ali Baş Komandanın əmri ilə Vətənə qayıdaraq onu qorumağa hazır olduqlarını bildirirlər. **Rusiyanın Sankt-Peterburq şəhərində** yaşayan **Cavid NƏSİRLİ** dövlət başçısına ünvanladığı məktubda yazır: “Cəbhədəki qələbələrə görə Sizi və xalqımızı təbrik edirik. Mən Sankt-Peterburqda yaşayan həmvətənlərimiz adından səfərbərlik elan etməyinizi, Vətənimiz, bayrağımız üçün son damla qanımıza qədər vuruşmaq istədiyimizi bildirirəm. Bu birliyin qarşısında düşmən dayana bilməz”.

“Torpaq əgər uğrunda ölən varsa, Vətəndir. Qoy şəhid qardaşlarımızın qanı yerdə qalmasın. Torpaqlarımız erməni işğalından təmizlənsin. Bütün dünya şahiddir ki, Azərbaycan münaqişənin sülh yolu ilə həlli üçün əlindən gələni etmişdir və edir. Cənab Ali Baş Komandan, əmrinizi gözləyirik”. Bu sözlər isə **Rusiya Federasiyasının Kemerovo vilayəti Novokuznetsk şəhərində** yaşayan **Anar ƏZİMOVun** Prezident İlham Əliyevə ünvanladığı müraciətindən götürülüb.

**Ukraynanın Xarkov şəhərindən Bəşər HACIYEVin** Ali Baş Komandana vurduğu teleqram da təxminən bu məzmundadır: “Xarici və daxili siyasətimizdə qazandığımız uğurlara görə Sizə minnətdarıq. Hər bir azərbaycanlı kimi, mən də Sizin döyüş əmrlərinizi yerinə yetirməyə hazıram. Bizim birliyimiz və gücümüz qarşısında düşmənin tab gətirmədiyini gördük. Bu, qələbənin başlanğıcıdır”.

Həmin şəhərdə təhsil alan tələbələr adından dövlət başçısına müraciət edən **Elmir MİSİRZADƏ** isə fikirlərini belə bildirib: “Ukraynanın Xarkov şəhərində təhsil alan tələbələr olaraq son günlər cəbhədə düşmən təxribatlarının qarşısının ordumuz tərəfindən qətiyyətlə alınmasından qürurlandıq. Biz tələbələr hər an ölkəmizə qayıdaraq cəbhəyə getməyə hazırıq. İnanırıq ki, Sizin diqqət və qayğınız sayəsində qüdrətlənən ordumuz mənfur düşmənə layiqli zərbələr vuracaq və cəbhədəki qələbələrimiz davamlı olacaq”.

“Mən Vətəndən uzaqda yaşayıram. Könüllü olaraq ölkəmi - Azərbaycanı müdafə etmək istəyirəm. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasında iştirak etmək mənim üçün böyük şərəfdir” - bu qısa, lakin səmimi sözlər Belarusda yaşayan **Seymur BABAYEVin** Ali Baş Komandana göndərdiyi müraciətdəndir.

***“Azərbaycan”***